

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 149 (24.286)

*18 avqust 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Şirinzadə Firuz Böyükağa oğlu – general-leytenant
Mustafayev İlkin Aydın oğlu – polkovnik-leytenant
Səfərov Elvin Sərraf oğlu – polkovnik-leytenant
Quliyev Anar Sədi oğlu – kapitan

**2-ci dərəcəli "Rəşadət" ordeni ilə**

Yunisli Ziya Rauf oğlu – kapitan

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Hüseynov Naseh İbrahim oğlu – polkovnik
Nağıyev Murad Tofiq oğlu – polkovnik

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

İbrahimov Elçin Zaur oğlu – general-leytenant
Abuzərli Natiq Zahid oğlu – general-mayor

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Rəsul Rasim oğlu – polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu – polkovnik
Rəhmanov Elşən Sabir oğlu – polkovnik
Abdullayev Anar Arif oğlu – polkovnik-leytenant
Səfiyev Mübariz Məhəmməd oğlu – mayor

**"Vətən uğrunda" medalı ilə**

Dünyamalıyev Ağamirzə Bəhman oğlu – polkovnik
Həbibov Elnur Arif oğlu – polkovnik
Mirzəyev Mirzə Adil oğlu – polkovnik
Baxşıyev Ravil Sabir oğlu – polkovnik-leytenant
Umudov Xəyyam Ehsan oğlu – 2-ci dərəcəli kapitan
Rzayev Emin Salam oğlu – kapitan

**"İgidliyə görə" medalı ilə**

Pirimov Ceyhun Ələkbər oğlu – tibb xidməti leytenantı

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abbasov Aftandil Qabil oğlu – polkovnik-leytenant
Abdullayev Ruslan Mehman oğlu – polkovnik-leytenant
Əkbərov Yusif Mürsəl oğlu – polkovnik-leytenant
Əzimova Gülnar Bəhram qızı – polkovnik-leytenant
Quliyev Elməddin Çingiz oğlu – polkovnik-leytenant
Məmmədli Rəhman Bayram oğlu – polkovnik-leytenant
Nağıyev Yaşar Tofiq oğlu – polkovnik-leytenant
Sadiqov İsmayıl Rəfael oğlu – polkovnik-leytenant
Əliyev Vəfadar Çingiz oğlu – mayor
Lazımzadə Azər Xudaverdi oğlu – mayor
Mirzəyev Elçin Cavanşir oğlu – mayor
Müslümov Elçin Qəşəm oğlu – mayor
Məmmədov Cavid Yusif oğlu – kapitan
Niftullayev Tural Calal oğlu – kapitan
Salahov Rəşad Maarif oğlu – kapitan
Səmədov Etibar İlqar oğlu – kapitan
Əliyev Əlizadə Eyyub oğlu – baş leytenant
Hüseynov Şamxal Əli oğlu – baş leytenant
Qarayev Toğrul Əhməd oğlu – baş leytenant
Quliyev Rəvan Əyar oğlu – baş leytenant
Nəcəfov Samir Əli oğlu – baş leytenant
Ramazanov Elvin Allahverdi oğlu – baş leytenant
Abdullayev Vüsal Fikrət oğlu – baş gizir
Cəlilova Dilşad Həsən qızı – baş gizir
Xanbutayeva Zabitə Firudin qızı – baş gizir
Mikayılova Şəlalə Elman qızı – baş gizir
İsaqzadə İlkin Yasin oğlu – gizir
Zeynalov Məqsəd Əsəd oğlu – kiçik gizir
Mənafov Emil Nazim oğlu – kiçik çavuş
Hüseynov Elnur Azər oğlu – əsgər
Hüseynov Ruslan Vidadi oğlu – əsgər
Novruzlu Nihad Elburus oğlu – əsgər.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 avqust 2023-cü il*

## Muxtar respublikada insan kapitalına yatırım: gələcəyə inamla

*Müasir dünyamızda ən qiymətli sərvət ayrı-ayrı insanlara məxsus əqli mülkiyyət, intellektual sərmayə, bilik və bacarıqlardır. İnsan kapitalı daşınan sərvətdir. İnsan öz bilik və bacarıqlarını özü ilə bir məkandan digərinə daşıyır, öz potensialını uyğun yerlərdə, şəraitlərdə reallaşdırır. Bu yeni növ rəqabətə hazır olmaqdan ötrü hər bir ölkənin yüksəkrəqabətli insan kapitalını formalaşdırması mütləqdir. Bunun üçün müasir təhsilin, innovasiyaları təşviq edən mühitin və insanların sağlamlığının təmin olunması əsas şərt kimi qəbul olunur. Bu gün Azərbaycan dövləti ölkəmizdə insan kapitalının inkişafını stimullaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirməkdədir. Real sektorun tələbinə uyğun kadr hazırlığının aparılması, təhsil sistemində islahatlar burada mühüm yer tutur.*



Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında davamlı inkişafın idarə olunması və bu sahədə uğurların əldə edilməsi ilə bağlı ardıcıl siyasət aparıldı. Məhz bu məqsədlə Azərbaycanda dövlət gənclər siyasəti həyata keçirilməyə başlandı və bu siyasət ölkədə kadr potensialının formalaşdırılması üçün mühüm bir mexanizmə çevrildi.

Prezident cənab İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk illərindən Azərbaycanın mövcud təbii resurslarının insan kapitalına çevrilməsi zərurətini əsas prioritetlərdən biri kimi irəli sürüb. Müəyyən edilmiş inkişaf hədəfləri, qəbul olunmuş qərarlar, həyata keçirilən strateji layihələr bu prioritetə uyğunlaşdırılır. Dövlətimiz rəqabətli insan kapitalının formalaşdırılmasını qloballaşma dövrünün əsas vəzifələrindən biri kimi görür və bu istiqamətdə ardıcıl addımlar atır.

Öz maraq və tələbatlarını reallaşdıran gənc nəsil dövlətin innovasion, məntiqi olaraq davamlı inkişafının əsas amilinə, cəmiyyətdə fundamental dəyişikliklərin hərəkətverici qüvvəsinə çevrilir. Nəzərə alsaq ki, ölkədə əhalisinin 60 faizdən çoxunu 35 yaşadək olan gənclər təşkil edir, bu qüvvənin və dəyişikliklərin miqyasını təsəvvür etmək o qədər də çətin olmaz. Azərbaycan Respublikasının Prezidenti müasir dövrdə ölkəmizin inkişafında insan kapitalının əhəmiyyətini qeyd edərək deyib: ***"Qara qızılı insan kapitalına çevirmək, sadəcə, şüar deyil. Bu, reallıqdır. Təhsilin yüksək intellektual bacarığa malik insan kapitalı formalaşdırmaqda və güclü iqtisadiyyat qurmaqda oynadığı rol bu gün daha aktualdır. İnformasiya və biliyə əsaslanan cəmiyyətin və inkişaf edən ölkənin iqtisadiyyatının tələblərinə cavab verən insan kapitalını inkişaf etdirmək məqsədimizdir".***

Bu gün dövlət gənclər siyasətinin muxtar respublikada məqsədyönlü şəkildə davam və inkişaf etdirilməsi sahəsində görülən işlər gənclərin qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıqlarını xeyli artırıb. Kadr potensialının formalaşması, inkişafı və qorunması mexanizmi kimi dövlət gənclər siyasəti müasir dövrün tələblərinə uyğunlaşdırılır. Gənclərin innovativ düşüncəli və bilikli yetişməsinə önəm verildiyi kimi, onların ictimai proseslərdə fəal iştirakına da diqqət yetirilir. Davamlı inkişafın təmin olunması dövlətin və cəmiyyətin inkişafının prioritet istiqamətlərindən biri olduğu üçün burada müxtəlif istiqamətlərdə kadr potensialının formalaşması və mövcudluğu strateji əhəmiyyət daşıyır.

Muxtar respublikanın kompleks inkişafını hədəfləyən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda həyata keçirilməsi nəzərdə tutulan vacib sahələrdən biri də məhz insan kapitalının inkişafı məsələsidir. Dövlət Proqramına əsasən insan kapitalının inkişafı üçün innovativ texnologiyalara əsaslanan təhsil sisteminin genişləndirilməsi, təhsil müəssisələrində elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat (STEAM) əsaslı tədrisin tətbiqinin həyata keçirilməsi, eyni zamanda Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsi nəzərdə tutulub. Onu da qeyd etmək lazımdır ki, Dövlət Proqramında Naxçıvan Dövlət Universiteti ilə digər ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi də prioritet istiqamətlərdən biri kimi ön plana çəkilib. Bu isə potensial kadr bazasının formalaşdırılması və insan kapitalına yatırılan investisiyanın öz müsbət nəticəsini verməsi ilə nəticələnəcəkdir.

İnsan kapitalının inkişaf etdirilməsi istiqamətində əsas məsələlərdən biri də peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən əmək bazarının tələblərinə uyğun yeni ixtisasların yaradılmasıdır. Bu amil əsasında da peşə təhsili müəssisələrinin mövcud sənaye sahələrinin tələblərinə uyğun olaraq qurulması bu istiqamətdəki boşluğu dolduracaq və ixtisaslı, peşəkar mütəxəssislərin formalaşmasına şərait yaradacaq.

Muxtar respublikada təhsil strategiyasının uğurla davam etdirilməsi, gənclərin hərtərəfli yetişdirilməsi üçün şəraitin yaradılması kadr potensialının formalaşmasına birbaşa təsir göstərən amildir. Dövlət İmtahana Mərkəzinin 2023-cü il üçün təqdim etdiyi nəticələrdə ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərən şəhər və rayonların ilk onluğunda muxtar respublikanın 6 şəhər və rayonunun təmsil olunması bu istiqamətdə həyata keçirilən tədbirlərin müsbət nəticələridir.

Dövlət başçısının qayğısı ilə həyata keçirilən tədbirlər elmin nəzəriyyə və təcrübə ilə inteqrasiyasına, təhsilə fərqli yanaşma mexanizminin formalaşmasına və dövlət kadr siyasətinin inkişafına imkan verir. İnsan resurslarını müasirləşdirmək, səmərəli əməkdaşlıq mexanizmi qurmaq dünya təhsil standartlarına uyğun təhsil modeli formalaşdırmağa şərait yaradır. Qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət edir. Beləliklə, təhsil sisteminin inkişafı müxtəlif müəssisələrə uyğun gənclərdən ibarət kadr potensialının yaradılması üçün kifayət qədər dəstək verir, eyni zamanda gənclər siyasəti ilə kadr siyasətinin inteqrasiya olunmuş şəkildə həyata keçirilməsini reallaşdırır.

Prezident cənab İlham Əliyevin ***"Biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Ona görə də kadr islahatları labüddür və qaçılmazdır"*** fikirlərinə uyğun olaraq yeni təfəkkürlü insanların, kreativ düşüncəyə malik, vətənpərvər kadrların irəli çəkilməsi günümüzün reallığıdır. Dövlət idarəçiliyində gənclərin irəli çəkilməsi, mühüm vəzifələrin etibar edilməsi üçün layiqli və ədalətli seçimin aparılması, kadr potensialının davamediciliyinin təmin edilməsi proseduru həyata keçirilir. Muxtar respublikada keçirilən işə qəbul imtahanlarında gənclərin iştirak payı kifayət qədər çoxdur. Müsabiqələr gənclərdən ibarət kadr potensialının formalaşdırılmasına və davamlı inkişafa təminat yaradır. Hazırda muxtar respublikada kadr siyasəti peşəkarlığa, müasirliyə, milli ideologiyaya və milliliklə ümumbəşəri dəyərlərin optimal vəhdətinə əsaslanır.

"Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli Fərmanı muxtar respublikada yeni idarəçilik mexanizminin yaradılmasına, bu istiqamətdə yeniliklərin tətbiq olunmasına imkan verir. Nəticədə, dövlət idarəçiliyi təkmilləşdirilməklə gənclərin üzərinə mühüm vəzifələr düşür, onlar yeniləşmənin əsas daşıyıcılarına çevrilirlər. Bu gün diyarımızın siyasi, eyni zamanda sosial strukturuna nəzər yetirsək, gənclərin müxtəlif sferalarda çoxluq təşkil etdiyini görərik. Bu isə Ulu Öndərin siyasi kursunun layiqincə davam etdirildiyinin göstəricisidir. Sadalanan bu faktlar muxtar respublikada gənclərdən ibarət hazırlıqlı kadr potensialının formalaşdırılması istiqamətində görülən işləri əyani şəkildə sübut edir.

Ölkəmizin nəinki bu günü, həm də gələcəyi gənc kadrların peşəkarlığının, səriştəliliyinin yüksək olmasından çox asılıdır. Bu, təbii ki, yalnız idarəetmə və dövlət qulluğu sahəsində deyil, eyni zamanda pedaqoji, mədəniyyət, səhiyyə, mətbuat və digər bütün sahələrdə də keçərlidir. Odur ki, bu vəzifələrə uyğun kadrların hazırlanması işi daim təkmilləşdirilir, praktiki iş təcrübələri artırılır. Səmərəli kadr siyasətinin yürüdülməsi vasitəsilə potensiallı və peşəkar gənc kadrları cəlb etmək, onların bilik və bacarıqlarından səmərəli şəkildə yararlanmaq və səriştəli kadr potensialının formalaşdırılmasını təmin etmək olar. Bu mənada, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan prioritet vəzifələrin icrası muxtar respublikada dövlət qulluğu istiqamətində yeniliklərin həyata keçirilməsinə imkan verəcəkdir.

*Ardı 2-ci səhifədə*






Dövlət İmtahan Mərkəzi tərəfindən müsabiqələrin mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsi kadr potensialının formalaşdırılmasına və zənginləşdirilməsinə, bu istiqamətdə vahid siyasətin həyata keçirilməsinə, bir mərkəzdən idarəetmənin müsbət keyfiyyətlərinin meydana çıxmasına yeni baxışı ortaya qoyacaq. Bununla yanaşı, yerli strukturların ölkənin müvafiq dövlət orqanları ilə intensiv təcrübə mübadiləsinin həyata keçirilməsi, əməkdaşların müvafiq təlim və təcrübə səfərlərinin təşkil edilməsi istiqamətində tədbirlər görüləcəkdir. Aparılan struktur islahatları Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmasına imkan verir.

Ölkə başçısı cənab İlham Əliyevin ***“Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir…”*** fikri “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapıb.

İnsan kapitalı deyərkən ilk yada düşən amillərdən biri, təbii ki, innovasiyalardır. İnnovasiyalar hər bir ölkədə iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunda çıxış edir. Bu, tarixin bütün dövrlərində belə olub. Müasir mərhələdə isə innovasiyalara daha böyük maraq vardır. Azərbaycan dövləti də buna çalışır. Bu istiqamətdə ardıcıl addımlar atılır, müxtəlif innovasiya mərkəzləri yaradılır. Naxçıvan Muxtar Respublikasında həlelik zəif olan startap mühitinin inkişaf etdirilməsi, eyni zamanda Azərbaycanda və beynəlxalq arenada özəl sektorun innovasiyasını və inkişafını təşviq etmək üçün tədbirlərin həyata keçirilməsi də gənclər üçün bu istiqamətdə yeni fürsətlər yaradır.

Yaradıcı gənclərin öz ideyalarını, bilik və bacarıqlarını həyata keçirmələrinə dəstək verilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi dolayısı ilə innovasiyalara da marağı artırır. Bütün bunlar isə cəmiyyətimizdə insan kapitalının inkişafına xidmət edir.

Məşhur ingilis iqtisadçı, neoklassik iqtisadiyyatın tamamlayıcısı kimi tanınan Alfred Marşalın “Ən dəyərli kapital insana yatırılan kapitaldır” fikrindən yanaşdıqda muxtar respublikada kadr potensialının formalaşdırılması və insan kapitalının inkişafı istiqamətində Dövlət Proqramında həyata keçirilməsi nəzərdə tutulan vəzifələrin icrası və onlardan gözlənilən nəticələri aşağıdakı kimi yekunlaşdırmaq mümkündür.

Dövlət Proqramının insan kapitalının inkişafı istiqamətindəki müddəalarının uğurla icrası muxtar respublikada əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artmasına, orta təhsilin keyfiyyət göstəricilərinin yüksəlməsinə, ali təhsilin mütərəqqi metodlar əsasında dünya təhsil sisteminə uğurla inteqrasiyasına, ictimai-fəal əhalinin böyük bir hissəsini təşkil edən gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların ideoloji hazırlığı, şəxsi inkişafı istiqamətində fəaliyyətin təşkilinə, gənclərin intellektual və yaradıcı potensialının artması və cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakının təmin edilməsinə, startap layihələrinin dəstəklənməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi isə Naxçıvan Muxtar Respublikasında startap təfəkkürünün və regionun innovasiya mühitinin inkişafına öz əhəmiyyətli təsirini göstərəcəkdir.

*Bütün bunlar təcrübəli kadr potensialının və dayanıqlı insan kapitalının formalaşdırılmasına, yekun nəticədə isə bizə gələcəyə daha inamla baxmağa və yeni uğurlara hazır olmağa təminat verir.*

✍ **Məmməd BABAYEV**

# “Heydər Əliyev – 100” Diaspor Gənclərinin Yay Düşərgəsi gənclərin gələcək inkişafı və Naxçıvanın tanıdılması baxımından səmərəli oldu



Düşərgənin yeddinci günündə gənclər Naxçıvanın ən qədim və görkəmli tarixi abidələrindən olan Əlincə qalasını ziyarət ediblər. Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin tarixi irsinin daşıyıcısı olan, yüzillər keçsə də, məğrurluğunu qoruyub saxlayan bu tarixi qala onların böyük marağına səbəb olub.

Günün ikinci yarısında gənclər “Diaspor üçün bir ideyam var” adlı paneldə iştirak ediblər. Paneli giriş sözü ilə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müşaviri Cahid Kazımov açıb. Qeyd olunub ki, diasporla işin inkişafının təmin olunması üçün ilkin şərtlərdən biri də gənclərin informasiya texnologiyaları haqqında geniş təsəvvür və biliyə malik olması və bu sahə üzrə ciddi addımların atılmasıdır. Bu mənada, hər bir gənc informasiya vasitələrini, süni intellektin fəaliyyətini düzgün anlamalı və ondan səmərəli istifadə etməyi bacarmalıdır.

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov informasiya texnologiyalarının bütün sahələrə inteqrasiyasının əhəmiyyətindən bəhs edib. O, tələbələrə uğur qazanmağın əsas şərtlərindən – innovativ və yaradıcı olmağın üstün cəhətlərindən söhbət açıb. Eyni zamanda gənclərə startap layihələrinin reallaşdırılması istiqamətində tövsiyələr verib, Azərbaycanda startap layihələri hazırlamağın müsbət və mənfi tərəflərindən danışıb. Qeyd olunub ki, süni intellekt vasitəsilə biz İT-ni fərqli rakurslardan öyrənib, tətbiq etməliyik.



Startap Azərbaycan Təşkilat Komitəsinin üzvü, ekspert Rəşad Əliyev startap layihələrinin reallaşdırılması, innovativ ideyaların startapa çevrilməsi və onun metodları haqqında gənclərə geniş məlumat verib. Qeyd olunub ki, beynəlxalq və yerli təcrübələrdən, müxtəlif vəsaitlər və resurslardan istifadə etməklə startap layihələri uğurlu şəkildə həyata keçiriləcək. Startap layihələri diaspor gənclərinin beynəlxalq mühitə çıxışını asanlaşdıracaq ünsürlərdəndir.

Daha sonra startap mentor, müstəqil ekspert Vüsal Yusifov startap layihələrinin reallaşması istiqamətində necə fəaliyyət göstərmək və haradan başlamaq lazım olduğundan danışıb. O qeyd edib ki, bu istiqamətdə uğur qazanmaq üçün gənclər hər zaman axtarışda olmalı, uğur qazanana qədər qətiyyətlə cəhd etməlidirlər. Bunun üçün, ilk növbədə, görüləcək işlə bağlı ideyanı düzgün formalaşdırmaq, ölkədəki bazar şəraitini araşdırıb təsdiqləmək, auditoriyanı düzgün müəyyənləşdirmək, MVP (məhsulun hazırlanması vaxt və pulun ən az xərcləndiyi, ideya və ideyaların həyata keçirilməsi prosesinin sınaqdan keçirildiyi proses) yaratmaq və sonda satış etmək lazım gəlir.

Daha sonra düşərgə iştirakçıları onları maraqlandıran sualları səsləndirib, müzakirələrdə yaxından iştirak ediblər. Onların bir neçəsindən aldığımız müsahibəni oxucularımıza təqdim edirik:



***Vüsalə Qubatova*** Böyük Britaniyada yaşayır və İngiltərənin Reading Universitetində təhsil alıb. Azərbaycan Respublikasının 2019-2023-cü illər üçün xaricdə doktorantura təhsilinin maliyyələşdirilməsi üzrə Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın Leeds Universitetində doktorantura təhsili almaq hüququ qazanıb. Bundan başqa, o, Slovakiya, Rumıniya və Türkiyədə təhsil alıb və tədqiqatçı kimi fəaliyyət göstərib. Vüsalə xanım düşərgə haqqında təəssüratlarını bizimlə bölüşdü: “Çox şadam ki, 60-a yaxın ölkədən 500-dən çox namizədin müraciət etdiyi düşərgəyə mən də seçilmişəm. Burada hər şey çox yüksək səviyyədə təşkil olunub. Düşərgənin proqramı ilə tanış olanda gördüm ki, gənclər üçün həm informativ, faydalı, həm də əyləncəli proqram hazırlanıb. Biz fərqli qurumlarda rəhbər vəzifələrdə çalışan şəxslərlə görüşür, onların təcrübələrini dinləyərək faydalanmağa çalışırıq. Düşərgə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunduğuna görə biz Onun həyat yolu haqqında geniş məlumatlar əldə edirik. Naxçıvanın gəzməli-görməli yerlərinə səfərlər etməklə qədim şəhər Naxçıvan haqqında daha çox məlumat qazanırıq. Düşərgənin digər bir üstün cəhəti isə odur ki, biz müxtəlif ölkələrdən gələn həmyerlilərimizlə şəbəkələşir, inteqrasiya edir və yaşadığımız ölkələrdə Azərbaycan üçün daha hansı işlər görə biləcəyimiz haqqında müzakirələr aparırıq. İlk dəfədir, Naxçıvana səfər edirəm və bura mənim Azərbaycanda ən sevdiyim şəhərlərdən biri kimi yaddaşımda qaldı. Çünki tarixi şəhərdir və unikal yerləri var. Ən çox sevdiyim yerlər isə Əlincə qalası, Möminə xatın türbəsi, Əshabi-kəhf və Xan sarayı oldu.





***Kənan Məmmədov:*** – Mən düşərgəyə Amerika Birləşmiş Ştatlarından qatılıram. Bu gün Azərbaycan Diaspor Komitəsinin təşkil etdiyi Diaspor Gənclərinin Dördüncü Yay Düşərgəsində iştirak etdiyim üçün çox xoşbəxtəm. ABŞ-ın görkəmli Corc Vaşinqton Universitetində Maliyyə və iqtisadiyyat üzrə təhsil almış biri kimi bu düşərgədə iştirak etmək imkanı həm şərəf, həm də imtiyaz idi. Düşərgənin diqqətlə planlaşdırılmış marşrutu intellektual əlaqə, mədəni yaxınlıq və yoldaşlığın mükəmməl qarışığını təmin etdi. Müxtəlif ölkələrdə yaşayan həmvətənlərimizlə ünsiyyət, şübhəsiz ki, düşərgənin ən maraqlı məqamlarından biri idi. Müzakirələrimiz zamanı paylaşılan fikirlər və ortaya çıxan perspektivlər əvəzsiz idi, mənim dünyagörüşümü genişləndirdi və mədəni mübadilənin gücünə daha dərindən qiymət verməyə təşviq etdi. Müxtəlif sahələr üzrə ekspertlərlə işləmək mənə Azərbaycanın və onun diasporunun qarşısında duran çağırışlar və imkanlar haqqında daha geniş anlayış əldə etməyə imkan verdi. Naxçıvanın tarixi və mədəni abidələrini tanımaq çox böyük təcrübə idi. Tarixin izi ilə yeriyə bilmək, rayonun zəngin irsi məndə silinməz iz buraxdı. Vətən müharibəsi iştirakçıları ilə tanış olmaq və onların hekayələrini eşitmək maraqlı idi və onların dözümlülüyü milli həmrəyliyimizi, tariximizi qoruyub saxlamağın vacibliyini dərindən xatırladır. İstirahət və əyləncə anları, o cümlədən intellektual oyunlar iştirakçılar arasında möhkəm bağ yaratdı. Əminəm ki, bu dostluq düşərgənin hüdudlarından kənarda da davam edəcək. Heydər Əliyev Fonduna, eləcə də Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə göstərdiyi dəstəyə görə səmimi qəlbdən minnətdaram. Onun əlaqələrini gücləndirmək, mədəni irsi təbliğ etmək və təşviqçilik öhdəliyi, həqiqətən, təqdirəlayiqdir. Bu düşərgə Azərbaycan və onun diasporu haqqında anlayışımı zənginləşdirməklə yanaşı, həm də məndə təmsil etmək və təcrübələrimi bölüşmək bacarığını artırdı. Təhsilimi və səyahətimi davam etdirdikcə yeni məqsədlər və bu düşərgənin mərkəzində beynəlxalq əməkdaşlıq, dostluq ideallarını davam etdirmək öhdəliyi qazanıram.





***Nigar İbrahimova:*** – 2017-2021 illər arasında Almaniyanın 3 müxtəlif şəhərində yaşamışam. Bavariya, Bundesland, Qaçqınlıq və Miqrantlarla Beynəlxalq Sosial İş, Ardınca Brandenburqda Beynəlxalq insan haqları və humanitar hüquq üzrə təhsil almışam. Təhsilimi bitirdikdən sonra Almaniyanın ən böyük sosial müdafiə təşkilatında miqrasiya mütəxəssisi kimi çalışmışam. Hazırda Amerika Birləşmiş Ştatlarının miqrasiya sahəsində önəmli proqramlarından birinin ştat üzrə direktoruyam. Diaspor fəaliyyəti ilə uşaqlıqdan məşğul olsam da, komitə ilə 2019-cu ildə Diaspor Gənclərinin II Yay Düşərgəsində iştirak etməklə yaxından tanış oldum. Xaricdə yaşadığım müddətdə çoxsaylı təmsil tədbirləri təşkil etmiş, Qarabağda erməni zorakılığına qarşı mitinqlərdə çıxışlarımla fəallıq göstərmişəm. Bu, böyük qürur hissidir. Düşərgənin bu il Ulu Öndər Heydər Əliyevin doğma yurdu Naxçıvanda keçirilməsi mənim iştirak motivasiyam idi. İlk dəfədir, burada oluram, çox xoş mənzərələr, tarixlə müasirliyin vəhdətini gördüm, zəngin xatirələrlə ayrılıram.



Daha bir müsahibimiz, Tatarıstanın Kazan şəhərindən dəvət olunan ***Kamila Əsgərova***dır. O, Kazan şəhərində teatrda truppa müdiri, gənc aktrisa kimi fəaliyyət göstərir, həmçinin aspirantura təhsili alır: – Bu tədbirə qatıldığım üçün çox xoşbəxtəm. Azərbaycanın fəal gənclərinin burada bir araya gəlməsi, birgə fikir mübadiləsinin yaranması imkanlarından istifadə etməyimiz çox əhəmiyyətli oldu. Bu səbəbdən də Naxçıvanın gəzməli-görməli yerlərində olub, çoxlu tanışlıqlar qazandıq. Dəvət üçün təşkilatçılara öz təşəkkürümüzü bildiririk.

✍ **Aysel YUSİFZADƏ**
✍ **Bülbül QULİYEVA**
✍ **Ramiyyə ƏKBƏROVA**



18 avqust Sərhəd Qoşunları Günüdür

# Vətən sərhədlərinin sipərləri, müstəqilliyimizin, sabahımızın keşikçiləri

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Əvvəl Sərhəd Qoşunları Azərbaycanda müstəqil yaranıbdır. Bir müddətdən sonra Milli Təhlükəsizlik Nazirliyinin tərkibində fəaliyyət göstəribdir. Ancaq mən bu sahəyə xüsusi əhəmiyyət verərək bir neçə ay bundan öncə qərar qəbul etdim, fərman verdim, onu Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi kimi müstəqil xidmətə çevirdim və ona da Dövlət Sərhəd Xidməti adı verdik. Təbiidir ki, bu sizin işlərinizin daha da uğurla aparılmasına kömək edir və edəcəkdir. Ancaq, eyni zamanda bu sizin üzərinizə çox böyük məsuliyyət də qoyur...***

***"Sərhədlərin qorunmasında xidmət göstərən hər bir kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir"***, – deyən Ümummilli Lider Heydər Əliyev sərhədlərin qorunmasına can yanğısı və həssaslıqla yanaşırdı. Məhz bu səbəbdən də Vətən müharibəsində sərhəddən keçən mərmiyə göz yummadığı üçün gözlərində Vətəni böyüdüb dağ edən, "Ya Qarabağ, ya ölüm!" – deyən Şahinlər, Amillər, Azərlər, Aminlər Vətən müharibəsinin qəhrəmanlarına çevrilərək şəhidlik zirvəsinə cığır açıb, Abbaslara, Maliklərə, Fəridlərə, Elçinlərə Vüsal olaraq şəhadət şərbətini içirdi. Son nəfəsində "Keçdi xəyalımdan öz gözəl yurdum", – deyən Xudayarlarımız bu Vətənin sərhədlərini öz qanları bahasına qorudular. Qırx yeddi sərhədçinin qəhrəmanlıqla şəhid olduğu Vətən müharibəsində mənfur ermənilərin sərhədlərimizə uzanan haram əllərini necə kəsdiyinizi, xarıbülbülü əsarətdən qurtarıb Azərbaycan üçün cəsarət rəmzinə çevirdik. Bunu tarix özü hayqırır azad etdiyiniz hər qarış Vətən sərhədində. Elə həmin gün Üzeyiri, Xanı, Bülbülü, Rəşidi sevinc göz yaşına qərq etdiniz. Ağaran ağ saçlara gündüz, qırışan əllərə yol oldunuz. Ovuc-ovuc torpaq gətirib, zərrə-zərrə vətən yaratdınız öz qanınızdan. Artıq çiçəklər açır ümidlər tapdalanan sərhədlərimizdə.





1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşıda duran ən mühüm vəzifələrdən biri dövlət sərhədlərinin mühafizəsi idi. Müstəqilliyə qədər Azərbaycanın İran və Türkiyə ilə sərhədlərini sovet sərhədçiləri qoruyurdu. 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizin sərhədlərini milli qüvvələrimiz qorumağa başlayıb.

1990-cı ildə ermənilərin işğalçı siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi itirilmiş, 132 kilometrlik İran-Azərbaycan sərhədini 30 ilə yaxın müddətdə nəzarətdə saxlayan Ermənistan bu əraziləri "boz zona" kimi istifadə edərək qaçaqmalçılıq fəaliyyəti ilə məşğul olmuşdur. Həmin dönəmdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyət göstərən Ulu Öndər Heydər Əliyevin prinsipiallığı və qətiyyəti sayəsində yalnız muxtar respublikanın sərhəd infrastrukturu qorunub saxlanılmış və sovet sərhədçiləri hərbi texnika və vasitələrini bütünlüklə təhvil verərək ölkəni tərk etməyə sövq edilmişdir.

Ümummilli Lider 1996-cı ildə Naxçıvan Sərhəd Dəstəsinin şəxsi heyəti qarşısındakı nitqində deyirdi: ***"Sizin hamınız, zabit heyəti, şəxsi heyət çox iş görmüş, yararlı sərhəd dəstəsi yaratmışsınız. Gördüyünüz bu işlərə görə sizə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, əldə etdiyiniz nailiyyətləri daha da artıracaq, burada Azərbaycan sərhəd qoşunlarının böyük bir dəstəsini nümunəvi dəstəyə çevirərək respublikamızın sərhədlərini etibarlı mühafizə edəcək, qoruyacaqsınız. Mən buna əminəm".*** Ulu Öndərimiz 2002-ci il iyul ayının 31-də Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə imzaladığı Fərmanla ölkəmizin sərhədlərinin etibarlı mühafizəsini daha da artırdı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin də məhz bu amili əsas götürərək həyata keçirdiyi tədbirlər ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə xüsusi diqqət və qayğı ilə yanaşmasının əyani təzahürüdür. Prezident cənab İlham Əliyevin Fərmanı ilə 2004-cü il yanvar ayının 14-də Naxçıvan Sərhəd Dəstəsinin bazasında sərhəd diviziyası yaradıldı.

2005-ci il dekabr ayının 27-də təsdiq edilən "Azərbaycan Respublikasının dövlət sərhədlərinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı"nın uğurlu icrası da ölkəmizdə sərhəd mühafizə sisteminin təkmilləşdirilməsi, peşəkar kadr heyətinin formalaşması ilə nəticələndi. Biz də sərhəddə yaradılan infrastruktur, sərhəd mühafizəsinin təşkili və görülən işlərlə maraqlanmaq üçün üz tutduq "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına. Müsahibimiz diviziyaya komandir təyin olunmuş polkovnik ***Bəhmən Babayev***dir. O, sərhədlərimizi qarış-qarış qorumuş, iki dəfə "Vətən uğrunda" medalı, döş nişanları ilə təltif edilmiş, işğaldan azad olunmuş torpaqlarda ilk yaradılmış "Qubadlı" Əlahiddə Sərhəd Diviziyasının komandiri olmuş, 2022-ci ildə aparılan struktur islahatları nəticəsində "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına komandir təyin olunmuşdur.

Diviziya komandiri bildirir ki, xidməti döyüş fəaliyyətinin təşkilində əsas səylər dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsinə, döyüş və döyüşə hazırlığın yüksəldilməsinə, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin artırılmasına, şəxsi heyətin maddi və məişət şəraitinin yaxşılaşdırılmasına, verilmiş tapşırıqların və göstərişlərin vaxtında yerinə yetirilməsinə, əməliyyat şəraitinin daim nəzarət altında saxlanılmasına, dövlət sərhədinin etibarlı mühafizəsi təmin edilərək cəzasız yarılmasına və məqsədsiz silahın tətbiqinə yol verilməməsinə yönəlmişdir. Sərhəd nümayəndəliyi ilə iş Azərbaycan Respublikası, Türkiyə Respublikası və İran İslam Respublikası arasında mövcud olan "Sərhəd rejimi haqqında müqavilə"nin, "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun, "Azərbaycan Respublikasının Dövlət Sərhədinin Mühafizəsi üzrə Sərhəd Qoşunlarının Nizamnaməsi"nin, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə, həmçinin Dövlət Sərhəd Xidmətinin digər normativ-



hüquqi aktlarına əsasən qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsinin aparılması çərçivəsində təşkil edilmişdir.

"Sərhədlərimizin mühafizəsi və qaçaqmalçılığa qarşı hansı mübarizə tədbirləri görülür?" sualına cavab olaraq müsahibim bildirir ki, sərhədpozucuların gizlənməsi və qaçaqmalın gizlədilməsi ehtimal olunan ərazilərdə kəşfiyyat axtarış tədbirləri həyata keçirilir. Eyni zamanda sərhəd bölmələrinin xidməti-döyüş fəaliyyətinin yoxlanılması və dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, sərhəd bölmələrinin rəhbərliyinə əməli köməkliyin göstərilməsi, təhlillər və yoxlamaların aparılması müntəzəm xarakter daşıyır. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası 234 kilometrlik quru sərhədi boyunca mühafizə olunan sahələrin texniki vasitələr və mühəndis çəpərləri ilə tam təchiz edilməsi işini müntəzəm davam etdirir və dövlət sərhədinin mühafizəsinə yönəldilmiş xidmət aparılan ərazilərdə sərhədlərin qorunmasına nail olur. Bununla yanaşı, dövlət sərhədinin mühafizəsi sərhəd naryadları tərəfindən həyata keçirilir. Sərhəd naryadlarının xidmətinin təşkilində günün istənilən saatında xidməti atlara, itlərə və avtonəqliyyat vasitələrinə üstünlük verilir. Sərhəd ərazisini fasiləsiz olaraq müşahidə altında saxlamaq üçün müxtəliftipli müşahidə kameralarından istifadə olunur ki, bu da işin peşəkarlığını artırmağa müsbət təsir edir. Hansı praktiki tədris və təlim məşğələlərinin keçirilməsi ilə maraqlandıqda diviziya komandiri məlumat verir ki, dövlət sərhədinin etibarlı mühafizəsinin təşkil olunması, sərhəd xidmətinin və döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, hərbi qulluqçuların bilik səviyyəsinin artırılması və peşəkar hazırlıqlarının təkmilləşdirilməsi məqsədilə müxtəlif kateqoriyalı hərbi qulluqçularla təlim toplantıları təşkil edilir. Sərhəd zastavalarının qovuşuq sahələrində bölmələrin birgə qarşılıqlı fəaliyyət planına əsasən təlim məşqləri, komandir hazırlığı məşqləri, plan əsasında bütün kateqoriyalı hərbi qulluqçular ilə atıcı



silahlardan təlim-atış çalışmaları praktiki yerinə yetirilir, qoşun xidmətinin təşkili və vəziyyəti analiz olunur, hərbi qulluqçulardan fiziki hazırlıq üzrə məqbullar qəbul olunur.

Şəxsi heyətlə ideoloji iş məsələsinə gəldikdə isə öyrəndik ki, ideoloji işin təşkilində Ümummilli Lider Heydər Əliyev irsinin və Ali Baş Komandan cənab İlham Əliyevin apardığı daxili və xarici siyasətin öyrənilməsi durur. Bununla sərhədçilərin yüksək mənəvi keyfiyyətlər və döyüş qabiliyyətini inkişaf etdirməklə onlara vəzifə borclarının yerinə yetirilməsinə məsuliyyətlə yanaşma keyfiyyətləri aşılanır. Hərbi-vətənpərvərlik tərbiyəsinə həsr olunmuş tədbirlərin keçirilməsi, əlamətdar və bayram günlərinin, eləcə də asudə vaxtın səmərəli təşkil edilməsi, bir sıra dövlət nümayəndələri ilə görüşlərin keçirilməsi işi şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərir. Gənc əsgərlər sərhəd zastavalarında xidmətlərini davam etdirərkən mütəmadi olaraq onlarla fərdi söhbətlər aparılır, nəticələri təhlil olunaraq öyrənilir. Xidməti vəzifələrin icrası zamanı əldə etdikləri nailiyyətlərə görə hərbi qulluqçuların evlərinə təşəkkür məktubu göndərilir, fəxri fərmanla təltif edilir və onlara təşəkkür elan edilir.

Diviziya komandiri bildirdi ki, dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində sərhəd mühafizəsi və əməliyyat-axtarış tədbirləri də müntəzəm və operativ şəkildə həyata keçirilməkdədir. Bunun nəticəsində 7 halda 17 nəfər sərhədpozucu



qismində saxlanılmışdır. Sərhədpozucuları ilə müvafiq filtrasiya tədbirləri keçirilmiş və Dövlət Sərhəd Xidmətinin İstintaq və Təhqiqat İdarəsinə təhvil verilmişdir. 6 iyun 2023-cü il tarixdə 25-ci Sərhəd Zastavasının 1-ci sahəsində 1 halda 1 ədəd bağlama aşkarlanmış, bağlamaya baxış zamanı ümumi çəkisi 31 kiloqram narkotik vasitə (15 kiloqram heroin, 16 kiloqram marixuana) aşkar olunaraq götürülmüşdür. 14 halda 60 nəfər İran İslam Respublikasının vətəndaşı sərhəd rejim pozucusu qismində saxlanılmış, keçirilmiş filtrasiya tədbirlərinin nəticələrinə əsaslanaraq yuxarı komandanlığın göstərişinə əsasən sərhəd nümayəndəliyi xətti ilə İran İslam Respublikasına təhvil verilmişdir. Xidmətdə fərqləndiklərinə görə 5 nəfər zabitə vaxtından əvvəl hərbi rütbə təqdim olunmuş, 62 nəfər fəxri fərmanla, 47 nəfər təşəkkürlə və xidmətdə fərqlənən bir neçə sərhədçi pul mükafatı ilə mükafatlandırılmışdır.

"Sərhəd diviziyasının qarşısında duran əsas vəzifələr nələrdir, cənab komandir?" – deyə ünvanladığımız sualı "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, polkovnik Bəhmən Babayev belə cavablandırdı:

– Ümummilli Liderimiz Heydər Əliyev irsinin öyrənilməsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərhədçilər qarşısında qoyduğu əsas tapşırıqların icrasının təmin edilməsi, Azərbaycan-Ermənistan dövlət sərhədinin mühafizəsini və müdafiəsini təşkil edən sərhəd bölmələrinin daim yüksək döyüş hazırlığı vəziyyətində saxlanılması və istənilən şəraitdə döyüş qabiliyyətinə malik olmasının təmin edilməsi, şəxsi heyətin döyüşsüz itkilərinə yol verilməməsi, bütün kateqoriyalardan olan hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin artırılması başlıca vəzifələrimizdir. Bu amillər sərhəd diviziyasında yüksək intizama nail olunmasını, regionda müsbət sərhədçi nüfuzunun formalaşdırılmasını təmin edir.

Şanlı tariximizə qızıl hərflərlə yazılmış İkinci Qarabağ müharibəsində də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları xüsusi qəhrəmanlıq göstərərək qazanılmış Zəfər sayəsində 132 kilometrlik Azərbaycan-İran sərhədini Silahlı Qüvvələrimizin nəzarətinə keçirməyi bacarmışdır. Bu il aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması ilə sərhədçilərimiz Azərbaycanın ərazi bütövlüyünü tamamilə bərpa etmiş oldular.

Deyirlər, sualın bitdiyi yerdə məmnunluq doğur. Diviziya komandiri dediklərini əyani göstərmək üçün bizim Türkiyə Respublikası ilə 11 kilometr məsafədə mühafizə olunan 1-ci Sərhəd Zastavasına qədər gedişimizi təmin etdi. Sərhəd zastavalarından keçdikcə yaradılan müasir zastava komplekslərini görür, zabit-gizir ailələri üçün müasirtipli yaşayış binalarına nəzər yetirirdik. Sərhədboyu məsafəni qət etdikcə sərhəd naryadlarının sərhədin mühafizəsində necə ayıq-sayıq dayandığını görür, ürəyimiz dağa dönürdü. Geri dönərkən qürur dolu təəssüratla düşünürük ki, biz evlərimizdə rahat yatarkən görünməyən qəhrəmanlarımız olan sərhədçilərimiz bizi 24 saat Vətən sərhədlərində qoruyur. Budur, gün batır və biz sərhəd dirəklərinin yanından Nuhun nəfəsi dəyən şəhərə qayıdarkən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bu sözlərini qeyri-adi iftixarla xatırlayıram: ***"...indi Azərbaycanın sərhədləri lazımi səviyyədə qorunur. Azərbaycan sərhədlərində infrastruktur yaradılır, müasir texnika alınır, Sərhəd Xidmətinin maddi-texniki bazası möhkəmlənir və əminliklə deyə bilərik ki, Azərbaycana qarşı təxribat planlarını hazırlayan qüvvələr artıq bilirlər ki, bu planların baş tutması mümkün deyil".***

***PS:*** *Məqaləni çapa təqdim edərkən Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında" Sərəncam imzalayaraq Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanan həmvətənlərimizdən bir qrupunu təltif etməsi xəbərini aldıq. Onların sırasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının polkovnik-leytenantı Ruslan Abdullayevin "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunması isə bizləri ikiqat sevindirdi. Ömrünü, taleyini bu peşəyə bağlayıb, Vətən sərhədlərinin basılmaz sipərlərinə çevrilən qəhrəman oğullarımıza bugünkü rahat, əmin-aman həyatımıza görə ürəkdolusu minnətdarlıq duyğusu ilə...*

**Fariz ƏHMƏDOV**

*Təxminən, 15-20 gündür ki, Cənubi Qafqazın "yazığı" yenə də hoqqabazlıqla məşğuldur və yersiz şüvənlik salmaqla dünyanın diqqətini Ermənistan-Azərbaycan şərti sərhədinə yönləndirmək istəyir. Yəqin ki, ölkəmizin ictimai-siyasi həyatını yaxından izləyən oxucularımız artıq mövzunun fərqinə vardılar. Bəli, söhbət ermənilərin sərhəddə yaratdığı "tır şousu"ndan gedir. Məncə, bu həm də komediyadır. Baş rolu oyuncaq dövlət Ermənistan oynasa da, ssenarinin daha böyük güclər tərəfindən yazıldığı yəqindir.*

# Geriyə dön, istiqamət start nöqtəsi – İrəvan

*(replika)*

### *Əvvəl gərək məramın xoş olsun*



Deməli, məsələ belədir: ötən ayın sonlarında İrəvanın mərkəzinə toplaşan "Spayka" şirkətinə məxsus tırlar Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan erməni əsilli vətəndaşlarımıza "humanitar yardım" çatdırmaq adı ilə sərhədimizə doğru yol aldılar. Hələ yük yola çıxmamış mərasimdə erməni rəsmilər boşboğazlıq edərək bildirdilər ki, guya, Qarabağ ermənilərı Azərbaycan tərəfindən "blokada"ya salınıb və onlar acından bir-birlərinin ətini yeyirlər. "Aclığın", "səfalətin", "etnik təmizləmə"nin qarşısını almaq üçün erməni əsilli rus iş adamı David Qazaryanın rəhbərlik etdiyi şirkətin tırları ("Spayka" tırları baş nazir Nikol Paşinyana və erməni ictimaiyyətinə yad deyil. Bu barədə birazdan) nəyin bahasına olursa-olsun, sərhədi keçməli və Azərbaycanın Xankəndi şəhərinə çatmalıdır.

Beləcə, bütün bu nağıl və çərənləmənin sonunda böyük bir manipulyasiyanın və təxribatın parçası olan, niyyəti heç də təmiz olmayan nəqliyyat vasitələri, Azərbaycanın bu ilin aprel ayında Laçının Həkəri çayı üzərində təsis etdiyi sərhəd-buraxılış məntəqəsinin bir addımlığına qədər gəlib çıxdılar. Bu addımı ona görə təxribat adlandırırıq ki, sülh danışıqlarının sonuncu Brüssel raundunda moderator – Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin də iştirakı ilə keçirilən görüşdə Azərbaycan və Ermənistan liderləri razılaşmışdılar ki, Qarabağda yaşayan ermənilər üçün zəruri olan məhsullar ölkəmizin müəyyən etdiyi Ağdam-Xankəndi marşrutundan keçməklə sözügedən bölgəyə çatdırılmalıdır.

### *Sən saydığını say, gör erməni nə sayır...*

Qeyd edim ki, sözü və imzası bir olan Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Ağdam-Xankəndi marşrutu ən yüksək səviyyədə qurularaq nəqliyyat vasitələrinin hərəkəti üçün hazır vəziyyətə gətirilib. Yəni Brüsseldə necə razılıq əldə olunmuşdusa, Azərbaycan ona bir daha sadiqlik göstərdi. Bizdə yaxşı bir deyim var: söz danışıqdan keçər... Bəs gəlin görək "başbilən" baş nazir nə etdi? Cavab çox sadə: tipik erməni xisləti. Təyyarəsi İrəvana enər-enməz belə bir bəyanatla çıxış etdi ki, Qarabağda, guya, acından inim-inim inləyən (halbuki sosial şəbəkələrin erməni seqmentində paylaşılan real görüntülərdən aydın olur ki, erməni əsilli vətəndaşlarımızın hər günü çal-çağırla, toy-bayramla keçir) ermənilərə çatası olan "humanitar yük" məhz Laçın sərhəd-buraxılış məntəqəsindən keçməklə Azərbaycana daxil olmalıdır. Bir daha gördük ki, erməni baş nazir nə özünə, nə də imzasına hörmət edir. Əgər belə olmasaydı, Vətən müharibəsindən sonra əldə olunmuş üçtərəfli razılaşmaya əsasən qısa müddətdə Nikolun qanunsuz silahlı birləşmələri Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında olan Azərbaycan ərazilərindən çıxarılmalı, Zəngəzur dəhlizi açılmalı və Naxçıvanın blokadasına son qoyulmalı idi. Başqa bir fakt: Hayastanın rəhbəri sözdə Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisini tanıdığını bəyan etsə də, bunu imzası ilə rəsmiləşdirib sülh müqaviləsi bağlamaqdan boyun qaçırır. İndi biz bu adamın səmimiyyətinə necə inanaq? Əlbəttə, bu, ritorik sualdır.

### *Mən deyirəm qapıdan keç gəl, sən bacadan düşməkdə maraqlısan...*

Ermənilər 44 günlük savaşdan sonra elə həyadan kəm hərəkətlər nümayiş etdirirlər ki, vallah, adam çaşbaş qalır. Hərdən mənə elə gəlir ki, sanki, Allah eləməmiş Vətən müharibəsində məğlub olan bizik, qalib gələn isə onlardır. Və bu məntiqlə də şərtləri onlar müəyyən edəcək, biz də oturub bunlara tamaşa edəcəyik. İndiki vəziyyətdə, bəlkə, "böyükləriniz" başınıza ağıl qoya ki, özünüzə gəlin, siz Qarabağı həmişəlik uduzmusunuz, reallıqla barışın! Yəni bu saatdan sonra durub deyəcəksiniz ki, "humanitar yük" sizin müəyyən etdiyiniz yolla ölkəmizə daxil olacaq və bunu həyata keçirərkən Azərbaycanın iradəsini nəzərə almayacaqsınız, bu, çox gülməli səslənir. Bəlkə, sizə yüksəkgərginlikli elektrik xətti lazımdır ki, özünüzü toka verib silkələnəsiniz və dərk edəsiniz ki, söhbət Azərbaycanın suveren ərazisindən gedir və 86,6 min kvadratkilometrlik coğrafiyada güclü liderin, qətiyyətli, prinsipial, ölkəsinin milli maraqlarını ən yüksək tribunalarda müdafiə etməyi bacaran, XXI əsrin SƏRKƏRDƏSİ cənab İlham Əliyevin sözü keçərlidir. Yumşaq desək, ritorikanıza fikir verin! Azərbaycan deyir ki, daha rahat, iqtisadi imkanları ilə bizə daha faydalı olan marşrutdan istifadə edin, ermənilər isə öz ampulasındadır. Yəni biz deyirik ki, evimizə qapıdan gəlin, ermənilər isə bacadan düşməkdə maraqlıdırlar.

Hayastan rəhbərliyi və bu planı cızan kənar başıpozuqlar belə hesab edirdilər ki, yəqin ki, Azərbaycan "Spayka" tırlarına atəş açar və biz də bunu əlimizdə bayraq edib ən yuxarı kürsülərdən bağırarıq ki, amandı, qoyma gəldi, "humanitar niyyət" gülləbaran edildi. Yükün humanitar olubolmadığı, bu tırlarda separatçılara nələrin daşınmasının qeyri-müəyyənliyi isə başqa bir mövzudur...

Bir də həmin əraziyə yaxından bələd olanlar yaxşı bilir, elə çəkilən kadrlardan da aydın görünür ki, bir aya yaxındır, sərhədimizdə gecələyən tırların dayandığı nöqtə çox çətin relyefə malikdir, yəni həmin nəqliyyat vasitələrinin manevr edib geriyə dönməsi mümkünsüzə yaxındır. Erməni "başbilənlər" də düşünüblər ki, Azərbaycan bu çətinliyi nəzərə alacaq və gec-tez inadından əl çəkərək "Spayka"lara "xoş gəlmisən" deyəcək. Amma bütün bu planlar alt-üst oldu. İndiki vəziyyətdə bu tırlar bizim üçün zirehli texnikalardan, tanklardan, toplardan belə çox-çox təhlükəlidir. Azərbaycan Prezidentinin müəyyən etdiyi vizyonda ölkəmizə qarşı saymazlıq, yekəxanalıq, təhdid dili ilə danışmaq yoxdur. İstəyir, o 24 tırdakı yükün hamısı xarab olsun, istifadə müddəti keçsin, yenə də bu bizim üçün maraqlı deyil.

### *Gücümüz də var, qüvvəmiz də*

Kənardan baxanda bu "tır şousu" çox gülünc görünür. Əslində, reallıq budur ki, Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan erməni əsilli vətəndaşlarımıza Nikolun "odnorazoviy" ərzaqları heç lazım da deyil. Çünki Azərbaycan dövləti öz vətəndaşına sahib çıxmağı da bacarır, ərzaqla təmin etməyi də.

Amma gəl ki, orada məskunlaşanlar separatçıların çirkin planlarının qurbanına, əsirinə çevriliblər və hər səfərində reinteqrasiyadan açıq şəkildə boyun qaçırırlar. Azərbaycan liderinin bu qədər açıq çağırışlarına baxmayaraq, hələ də qanunsuz rejimə dəstək verməklə məşğuldurlar.

Ağıl və məntiq isə onu deyir ki, başqa çıxış yolu yoxdur. Şimal da, cənub da, şərq də, qərb də Azərbaycandır. Çərçivə hər keçən gün daralır. İşıqlı gələcək, firavan həyat, tox qarın üçün "Spayka"lara yox, Azərbaycan vətəndaşlığına ümid bəsləyin!

O ki qaldı mənasız və cəfəng "blokada" şüarlarınıza... Bu, həyasızlığın pik nöqtəsidir. 90-cı illərdə 20 faiz torpağımızı işğal edən, bir milyondan artıq soydaşımızı dədə-baba torpağından didərgin salan, işğala görə əzəli Azərbaycan torpağı olan Naxçıvanı blokadaya salan ermənilər olsun, indi isə gəlib süni blokadadan dəm vursunlar. Siz blokadanı 30 ildir, bu yükü çiyinlərində daşıyan cəfakeş naxçıvanlılardan soruşun! İşğalçılıq siyasətinizə görə illərlə işıqsız, qazsız qalan, anasından ayrı düşmüş yavru təsiri bağışlayan, paytaxtına getmək üçün məcbur hava yolundan istifadə edən Naxçıvan və naxçıvanlılardan. Buna görə haqlı olaraq Naxçıvan qeyri-hökumət təşkilatları (QHT) bu günlərdə beynəlxalq ictimaiyyətə müraciət etdilər. Ümid edirik ki, bu müraciət ikili standartların qurbanı olmayacaq. Çünki Azərbaycan kartları açıq "oynayır". Haqlı və haqsızın kimliyi çoxdan bəllidir.

Haqlı və haqsızdan söz düşmüşkən, avqustun 16-da avantürist dövlət yenə də dünyanın ali siyasi platformalarının birində – BMT Təhlükəsizlik Şurasında fiaskoya uğradı, növbəti biabırçılığını yaşadı. Belə ki, mövzumuzdan da bəlli olduğu kimi, Qarabağ ermənilərinə göndərilən "humanitar karvan"la bağlı BMT-yə müraciət edən və buradan Azərbaycan əleyhinə bəyanatların qəbul olunacağına ümid bəsləyən ermənilər, necə deyərlər, suyu süzülmüş şəkildə iclas salonunu tərk etdilər. BMT-dəki daimi nümayəndəmiz Yaşar Əliyev erməni yalanını tutarlı faktlarla ifşa etdi, yəni acından ölən tort yemir, cənablar! Vaxt sizin əleyhinizə işləyir. Bütün yollar isə Azərbaycanın masa üzərindəki sülh paketinə aparır.

### *"Bu həmin "Spayka"dır"*

Son olaraq bir neçə kəlmə də yuxarıda anonsunu verdiyimiz "Spayka" barədə. Əbəs yerə demirik ki, bu şirkətə məxsus tırlar erməni baş nazir Nikol Paşinyana yad deyil. Çünki Vətən müharibəsində Azərbaycanın qarşısında diz çökən, son hesablamalara görə 10 mindən çox canlı qüvvəsini itirən Ermənistan itkilərin sayını ictimaiyyətdən gizlətmək, alovlu xalqın qəzəbindən qorunmaq məqsədilə döyüş meydanından çıxarılan leşləri dondurucu funksiyaya malik "Spayka" tırlarında günlərlə saxlayaraq, necə deyərlər, aram-aram basdırırdılar. Yəni "Spayka" bir növ Paşinyan üçün qalxan rolunu oynayırdı. Görünür, o, yenə də bu nəqliyyat vasitələrinin "ayağının uğurlu olacağına" inanır. Amma Laçında – Həkəri çayı üzərində dayanan qəhrəman Azərbaycan sərhədçisinin siması, iradəsi isə həmin tırların sürücülərinə sanki bu komandanı verir: geriyə dön, istiqamət start nöqtəsi – İrəvan...

**Muxtar RZAZADƏ**

---

*Gəncliyimiz, gələcəyimiz*

## Kənd tam orta məktəblərinin məzunlarının yüksək nəticə göstərməsi sevindiricidir

Müdriklərimiz deyiblər ki, elm və bilik öyrənməyə tələs. Çünki bunlar əldən heç bir zaman çıxmayan miras, bezilməyən yoldaş, insanın bəzəyi və hər bir kəsin bütün ömürboyu köməyinə yetən dəyərlərdir. Bu iki dəyəri əldə etməyin yolu isə təhsildən keçir. Bu gün muxtar respublikamızda bu sahəyə xüsusi diqqət yetirilir, təhsilimizin möhkəm təməllər üzərində qurulmasına şərait yaradılır. Ulu Öndər Heydər Əliyevin dediyi kimi: ***"İqtisadiyyatda, mədəniyyətdə, elmdə – həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir".***

Muxtar respublikamızın ən böyük bölgəsi olan Şərur rayonunda da təhsilə göstərilən dövlət qayğısı nəticəsində hər il ali təhsil müəssisələrinə qəbul olunan və 500-700 arası bal toplayanların sayı artır. Rayonda fəaliyyət göstərən tam orta məktəbləri bitirən məzunlar ali məktəblərə builki qəbul imtahanında müvəffəqiyyətlə iştirak ediblər.

Onlardan biri Çomaxtur kənd tam orta məktəbinin məzunu ***Aysu Rzayeva***dır. O, dördüncü qrupda 607 bal toplayıb, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisasını seçməyi düşünür. Aysu öz sevincini bizimlə belə bölüşdü: – Həkimlik sənətini lap uşaqlıqdan sevirəm. Bu gün öz arzuma çatdığım üçün çox sevincliyəm. Amma qarşıda daha məsuliyyətli bir dövr vardır. Tələbə adını qazanmaqla iş bitmir. Daha çox oxumaq lazımdır. Bunun üçün biz gənclərə hər cür şərait yaradılıb. Ona görə də dövlətimizə minnətdaram. Çalışacağam ki, valideynlərimi, mənə dərs deyən müəllimlərimi bundan sonra da sevindirim.



***Fəridə Babayeva*** isə Ərəbyengicə kənd tam orta məktəbinin məzunudur. O, birinci qrup üzrə keçirilən qəbul imtahanında 585 bal toplayaraq valideynlərini sevindirib, Bakıda fəaliyyət göstərən ali məktəblərdə təhsil almaq istəyir. İnformasiya texnologiyaları sahəsi üzrə mütəxəssis olmaq ən böyük arzusudur. Fərida deyir: – Ətrafımdakı insanların təhsilə olan sevgisi məni də məktəbə ilk qədəm qoyduğum gündən oxumağa, biliklərə yiyələnməyə sövq edib. Məktəbimizdə şagirdlərin müasir informasiya texnologiyalarının sirlərinə mükəmməl yiyələnməmələri üçün yaxşı şərait vardır. Müasirtipli kompüterlər, elektron lövhəli sinif otaqları şagirdlərin ixtiyarına verilib ki, bu da təhsildə keyfiyyət dəyişikliklərinə zəmin yaradıb. Bu diqqət və qayğının müqabilində yaxşı oxumalı, gələcəkdə xalqımız üçün yararlı kadr olmalı, daim çalışmalıyıq.



Rayonun Xələc kənd tam orta məktəbinin məzunu ***Gültəkin Mehdizadə*** qəbul imtahanında üçüncü qrupda 573 bal toplayaraq valideyn və müəllimlərini sevindirib.



Ən böyük arzusu Hüquqşünaslıq ixtisasında təhsil almaq olan Gültəkin niyyətinə addım-addım yaxınlaşır. Sevincinin həddi-hüdudu yoxdur. Deyir ki, tələbə adını qazanmaq üçün müəllimlərinin dediklərinə vaxtında əməl edib, gecə-gündüz oxuyub. Bildirir ki, tələbə adını qazanmaqla həm valideynlərini, həm də müəllimləri qürurlandırıb. Gültəkin Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsini seçmək istəyir. Deyir ki, bu gün yaşadığı sevinci sözlə ifadə etmək çox çətindir. Öz adından və onun kimi yüzlərlə şagirdə göstərilən qayğıya görə dövlətimizə minnətdardır. Təhsildə göstərdiyi uğurlarla yanaşı, həm də Vətənimizə layiqli vətəndaş olmağa çalışacaq.

*Ulu Öndərin əsasını qoyduğu təhsil siyasəti bu gün muxtar respublikamızda da uğurla davam etdirilir, təhsil infrastrukturu yenilənir. Bunun nəticəsidir ki, övladlarımız müasir, geniş, hər bir şəraiti olan məktəblərdə təhsil alırlar. Kəndlərimizdə fəaliyyət göstərən tam orta məktəblərin məzunlarının yüksək nəticə göstərməsi isə onu sübut edir ki, təhsil müəssisələrimizin harada yerləşməsindən asılı olmayaraq, yaradılan şərait yüksək səviyyədədir. Övladlarımızın öhdəsinə isə yaxşı oxuyub Vətənimizə layiqli kadrlar olmaq düşür.*

✍ **Ramiyyə ƏKBƏROVA**

---

### *İtmişdir*

Şərur rayonunun Vərməziyar kəndində yaşamış Əzimov Yusif Hüseyn oğlunun adına olan JN-273 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 488